# İslam bankçılığı

Bu günlərdə Azərbaycan Beynəlxalq Bankı (ABB) ölkədə İslam bankçılığının tətbiqi layihəsinin həyata keçirilməsinə start vermişdir. Bu məqsədlə ABB-də İslam bankçılığı departamenti yaradılmışdır. İslam bankçılığının tətbiqi mərhələlərlə həyata keçiriləcək. Fiziki və hüquqi şəxslərin maliyyələşdirilməsi və müştərilərə xidmətlərin göstərilməsi isə 2013-cü ilin yanvar ayından planlaşdırılır. Mövzu ilə əlaqədar departamentin direktoru Behnam Qurbanzadəyə müraciət etdik.

***- İslam bankçılığı nədir? Ənənəvi bankçılıqdan fərqli, üstün səhətləri haqda oxucularımıza məlumat verərdiniz.***

- İslam bankçılığı islam maliyyə sisteminin tərkib elementi olaraq bank əməliyyatlarının islam qanunvericiliyi əsasında aparılması formasıdır. Ənənəvi bankçılıqdan fərqli olaraq, İslam bankçılığı bir sıra üstünlükləri özündə ehtiva edir. İlk növbədə, islam bankı maliyyə bazarında spekulyativ əməliyyatlarla məşğul olmur. Bu növ bankçılıq iqtisadiyyatı faizlərin hesablanması metodu əsasında, həmçinin islam dini ilə qadağan olunmuş istehsal, ticarət və xidmət növlərini maliyyələşdirə bilməz. Məsələn, spirtli içkilərin və donuz əti mənşəli məhsulların istehsalı, qumar oyunları və sair islam dininin qanunları ilə qadağan edilən istehsal sahələri bu bank tərəfindən maliyyələşdirilmir. Qeyd etdiyim fərqlər İslam bankçılığının əsas üstünlüklərini təşkil edir və maliyyə vəsaitlərinin investisiya formasında birbaşa iqtisadiyyata yerləşdirilməsini təmin edir, ticarət və xidmət dövriyyələrini əhəmiyyətli şəkildə artırır. Bundan əlavə, maliyyə bazarlarında bütün əməliyyatlar şəffaf və aydın xarakter daşıyır, fiziki mövcudluğu olmayan məhsulların ticarətini qadağan edir. Bu da öz növbəsində maliyyə bazarlarında iri maliyyə spekulyantları tərəfindən qiymətlərin süni şəkildə artırılıb-azaldılmasına maneçilik törədir. Bununla da maliyyə bazarında sabitliyin və etibarlılığın təmin olunmasına şərait yaradılır.

***- İslam bankçılığı hansı ölkələrdə inkişaf edib? Bu növ bankçılıq əsasən hansı prinsiplərə söykənir?***

- İslam bankçılığı sistemi əsasən Fars körfəzi ölkələri (BƏƏ, Qətər, Bəhreyn, Küveyt, Səudiyyə Ərəbistanı, İran və s.), Misir, Malayziya və Türkiyədə inkişaf edib. İslam bankçılığı mərkəzlərindən biri də Böyük Britaniyanın paytaxtı London hesab olunur. Ümumiyyətlə, bir sıra iri Avropa banklarında «İslam pəncərəsi» xidməti mövcuddur və müvəffəqiyyətlə fəaliyyət göstərir. İslam bankları müştəri ilə iqtisadi münasibətlər quranda əsasən tərəfdaşlıq prinsiplərinə söykənir. Belə ki, şəriklik prinsipilə aparılan investisiya əməliyyatlarında bank, mənfəətlə yanaşı, müştəri ilə biznes prosesində əmələ gələn zərərləri də bölüşdürür. Bu da, öz növbəsində, hər iki tərəfin məsuliyyətini ikiqat artırır. Həmçinin, İslam bankçılığı bütün müqavilələrdə qeyri-müəyyənlik xarakteri daşıyan müddəaların olmasına yol vermir. Hesab edilir ki, bu, gələcəkdə iqtisadi mübahisənin təməlini təşkil edə bilər.

***- Azərbaycanda İslam bankçılığının inkişaf perspektivini necə görürsünüz? İslam bankçılığının tətbiqi ölkəyə nə verə bilər?***

- İslam bankçılığının tətbiqi respublikamızda bank sisteminin inkişafının yeni mərhələsidir. Belə ki, beynəlxalq islam maliyyə qurumlarından əlavə vəsaitlərin cəlb olunması, respublikamızda investisiya mənbələrinin diversifikasiyası, sahibkarlığın inkişafı və əhaliyə yeni bank xidmətlərinin göstərilməsi təmin ediləcək. Nəzərə alsaq ki, İslam bankçılığı sistemi əsasən investisiya maliyyələşdirmə sisteminə əsaslanır, geniş miqyasda bu istehsal, xidmət və ticarət sektorlarını maliyyələşdirməklə ölkədə yeni iş yerlərinin açılmasına, ümumi daxili məhsulun yüksəlməsinə, buna müvafiq olaraq vergi və gömrük daxilolmalarının artmasına, ümumilikdə Azərbaycan iqtisadiyyatının güclənməsinə xidmət edəcəkdir.

***- Dünyada İslam bankçılığına olan münasibət haqqında məlumat verərdiniz...***

- 1980-ci ildən bəri ənənəvi bank sistemində 20-yə yaxın maliyyə böhranı baş vermişdir ki, bunların da ən böyüyü 2008-ci ildə başlamış və hal-hazırda da davam etməkdədir. Bu da, öz növbəsində, uzun tarixə malik ənənəvi bank sisteminin köklü şəkildə islahata ehtiyacı olmasından

xəbər verir. Amma ənənəvi bankçılığın əksinə olaraq, islam maliyyə institutları dünya maliyyə böhranından problemsiz çıxa bildilər. Ümumiyyətlə, islam maliyyə institutlarının son illər ərzində nümayiş etdirdikləri inkişaf tendensiyası bizə nikbin olmağa böyük əsas verir. Bu və digər müsbət cəhətlər son illərdə ABŞ, Qərbi Avropa və MDB ölkələrinin İslam bankçılığına artan marağına səbəb olmuşdur.

***- Azərbaycan Beynəlxalq Bankında yaradılan İslam bankçılığı departamentinin gələcək fəaliyyəti haqqında nə deyə bilərsiz?***

- İslam bankçılığı respublikamız üçün nisbətən yeni maliyyə fəaliyyəti olduğundan bu prosesin geniş vüsət alması üçün müxtəlif səviyyələrdə hüquqi-təşkilati işlərin aparılması tələb olunur. İlkin mərhələdə departamentin əsas fəaliyyəti analitik xarakter daşıyacaq və mövcud bank qanunvericiliyi çərçivəsində əhaliyə islam bank məhsul və xidmətlərinin təqdim olunması nəzərdə tutulmuşdur. Növbəti mərhələdə departament tərəfindən Azərbaycan bank qanunvericiliyi və digər hüquqi-normativ sənədlərə əlavə və dəyişikliklərin edilməsi haqqında təkliflərin Azərbaycan Respublikası Milli Məclisinə, Nazirlər Kabinetinə və Mərkəzi Banka təqdim olunmasından ibarətdir.

Eyni zamanda, beynəlxalq və daxili maliyyə bazarı departamentin fəaliyyətinin əsas istiqamətlərini təşkil edəcək. Beynəlxalq maliyyə bazarlarında əsas fəaliyyət bankın həmin bazarlara çıxışının təmin edilməsilə mövqeyinin möhkəmləndirilməsindən ibarət olacaq. Bu fəaliyyətə beynəlxalq maliyyə institutları ilə əlaqələrin qurulması, investisiyaların ölkəyə cəlb edilməsi, beynəlxalq iqtisadi layihələrdə bankın iştirakının təmin edilməsi və s. daxildir. Daxili bazarda isə investisiya mənbələrinin diversifikasiyasını təmin etməklə investisiya mühitinin yaxşılaşdırılmasına nail olmaq, İslam bankçılığı məhsullarının daxili bazarda geniş tətbiqi və son nəticədə biznes subyektlərinə və əhaliyə daha keyfiyyətli bank xidmətlərinin göstərilməsi prioritet kimi qəbul edilmişdir.

Arzu İBRAHİMOVA